# Söz mənə Tanrıdır, mən sözə bəndə

## *Sözə hörmətlə yanaşan Əli Nəcəfxanlı*

**Yazını belə bir ifadə ilə başlamaq istəyirəm. Şəxsiyyət vəsiqəsi daşımaqla şəxsiyyət olmur. Bahalı maşın sürmək, yumşaq kresloda oturmaq, bahalı kostyum və ağ köynək üzərində yarım metrlik qalstuk taxmaqla cəmiyyət arasında görünməklə də şəxsiyyət olmur. Şəxsiyyət gərək insanın qanında, canında, mayasında və əməlində olmalıdır. Bu cür əməl sahibi olan, həmişə xoş sözlər eşitdiyimiz, minlərlə oxucu kütləsinin qəlbinə öz səmimiyyəti ilə yol tapan, maraqlı publisistik yazıları, dərin məzmunlu şeirləri ilə insanları xəyal dünyasına aparan dəyərli şairimiz, yenicə çapdan çıxan "Ürəyimdi yazanım" kitabının müəllifi Əli Nəcəfxanlıdır.**

Mən onu 40 ilə yaxındır ki, tanıyıram. Tanıdığım bu illər ərzində Əli müəllimin nə bahalı maşını olub, nə oturduğu gözəl kreslo, nə bahalı kostyumu, nə də ağ köynək üzərində yarım metrlik qalstuku. O, həmişə sadə geyinib və sadə şəkildə də xalq arasında görünüb.

Əli Nəcəfxanlının səmimiliyi minlərlə oxucu kütləsinin qəlbinə yol tapıb desəm, səhv etmərəm. Harda olursa olsun, Azərbaycanın hansı bölgəsinə gedirsə orada onun çox etibarlı dostları var. Çünki bu yaxınlarda "Ürəyimdir yazanım" kitabının təqdimatında mən bunun bir daha şahidi oldum. Həmin təqdimata Azərbaycanın hər bölgəsindən nümayəndələr gəlmişdi. Hətta Almaniyadan, Rusiyadan, Gürcüstandan dəvət olunmuş qələm dostlarımız da vardı. Hamısı da kitab və Əli Nəcəfxanlı haqqında özlərinin səmimi fikirlərini söylədilər.

**Sözə həmişə hörmətlə yanaşan və sözü özü üçün Tanrı bilən Əli Nəcəfxanlının inanıram ki, həmişə ruzusu olacaq. Çünki bu sözləri yazan insanın əli həmişə Tanrının ətəyindədir.**

Vuruldum, oxşadım sözü o ki var,
Söz mənə Tanrıdır, mən sözə bəndə.
Balığınkı sudur, quşunku hava,
Sözdür mənimki də, mən sözə bəndəm.

Əli Nəcəfxanlı bütün yaradıcılığı dövründə sözlər məkanında həmişə ehtiyatla və uğurla addımlayıb. Çünki o, həmişə sözü əldə edə bilir və sözü özündən küsdürmür. O, sözlə davranmağı və sözü yaşatmağı yaxşı bacarır. Bütün şeirlərində canlandırdığı insanların obrazını və sözlə heykəlini ucaldır. Gözəl şairimizin "Jurnalistəm" şeirini oxuduqda yuxarıda yazdığım fikrin bir daha şahidi oluruq.

Məğrurdur qələmdən çıxan çörəklə
Əyrini, düşkünü oraq tək biçər.
Məsləki yolunda yanar ürəklə,
Özgə sevinci də, özgə qəmi də.
Onun qələminin uğrundan keçər,
Onun ürəyinin içindən keçər.



Ən adi rəqəmi, sözü də bəlkə
Yüz dəfə süzgəcdən keçirib yazar.
Ən kiçik xəbərə, böyük oçerkə
Gözünün yağını içirib yazar.

25 ildən çoxdur ki, Qarabağ dərdi hər bir vətəndaşımızın qəlbinə kədər heykəli çökdürüb. İşğal olunmuş torpaqlarımız düşmən tapdağı altında hönkür-hönkür ağlayır və həsrətlə yolumuzu gözləyir. Rayonlarımızda olan şəhidlər xiyabanı hər birimizin göz dağıdır. Qarabağ döyüşlərində on minlərlə məzarlarda yatan insanların ruhu bugünədək narahatdır.

**Əli Nəcəfxanlının Qarabağ mövzusuna dəfələrlə müraciəti də özünəməxsus tərzdə yaddaşlarda yaşaması hər birimizin qəlbində orada baş verən dəhşətlərə ruh düşkünlüyü yaradır. Çünki 25 ildir ki, xəyallarda yarımçıq olaraq yaşadırıq Qarabağ dərdini. Bu arzuların haçansa həqiqətə dönəcəyi günləri həsrətlə gözləyirik. Şair Qarabağ dərdini belə bir obrazlı fikirlə deyir:**

Ata-babalarımızın əyildiyi canamaz, alnını qoyduğu möhürdür Vətən. Fikirlərini isə bu sözlərlə tamamlayır:

Vətən başdan da ucadır,
Vətən tağdan da ucadır,
Vətəndaşdan da ucadır...

İstedadlı şairimiz Vətən haqqında çox maraqlı fikirlər söyləyib. Onun Vətən haqqında dediyi sözlər aşağıda adlarını yazdığım sevimli şairlərimizin sözləriylə həmahənglik təşkil edir.

**Məmmədhüseyn Şəhriyar:**

Can qurban etmənin vaxtı çatıbsa,
Səndən hansı namərd əsirgəyər can?

**Məmməd Araz isə:**

Vətən mənə oğul desə, nə dərdim.

**Məmməd Aslan isə Vətən haqqında belə deyir:**

Vətən gözdür, biz kirpik,
Gözümüzün keşiyini çəkirik.

**Məmməd İsmayıl isə Vətəni belə dəyərləndirir:**

Keçilməz qaladır, Vətən keçilməz.

Amma çox əfsus ki, hələ də belə qiymətli kəlamlar kağız üzərində qalır. Çünki biz Vətən torpaqlarını azad edə bilmirik. Şuşa da, Laçın da, Qubadlı da, Xocalı da və çoxlu adlarını çəkmədiyim Vətən torpaqları on minlərlə anaların göz yaşları Həkəri çayı tək iyirmi beş ildir qan ağlayır.

**Əli Nəcəfxanlının isə hər bir kəsin özünün hesabat dərsi kimi yaşadığı məkanda "Hesabat vaxtıdır" şeiri hər birimizi birliyə və özümüzə hesabat verməyə çağırır:**

Olsa da Vətənimin sərhədi bəlli,
Yaddadır torpağın yarısı, yadda!
Qəliz bir məkandır üç-dörd əməlli,
Vurursan, bölürsən, üstə gəlirsən,
Yarısı yazılır, yarısı yadda...

Bax bu sözlər və fikirlər ancaq və ancaq Əli Nəcəfxanlıya məxsus ola bilər. Çünki onun kiçicik ürəyində çoxlu söz bulqaları yerləşir. Bu söz bulaqları da öz mənbəyini doğulduğu, axar-baxarlı Yardımlı torpağının dağlarından süzülən şəlalələrdən götürür.

Şair taleyini yaşayan insanlar heç nədən qorxmur, çəkinmir. Həmişə özünü ulu Tanrının dərgahında hiss edir və qələminin gücünə arxalanır. Zəmanəsindən asılı olmayaraq haqqı, ədaləti tərənnüm edir. Əli Nəcəfxanlı da belə yazarlarımızdandır. Çünki o, həyatda sözün hikmətinə, müqəddəsliyinə ilahi bir varlıq kimi yanaşır. Elə şairin böyüklüyü də sözün həqiqi mənasında müqəddəsliyi sözə hörmətlə yanaşmasındadır və Tanrı verən istedadına xəyanət etməməsindədir. Həmişə qəlbinin gücünə arxalanıb bütün bölgələri qarış-qarış gəzən, sıravi insanlardan tutmuş maestro Niyaziyə, başqa-başqa tanınmış insanlara qədər sözlə onların həyat portretlərini bütün cizgilərinə qədər dolğunluqla qələmə alır. Həmin yazıları həm mətbuatda, həm də televiziya ekranlarında işıqlandırmaq kimi böyük məsuliyyəti çiynində daşıyıb Əli Nəcəfxanlı.

**Əli Nəcəfxanlının dostluğu insanlarla yaxşı alınır, ona görə ki, o, doğma oğlu ilə də dostluq edir.**

"Ürəyimdir yazanım" kitabı haqqında çox danışmaq olar. Çünki burada şair bir-birindən maraqlı insanların həyat hekayətini qələmə alıb. Ona görə də oxuculara məsləhətim budur ki, bu kitabı alıb oxusunlar.

Mən isə öz növbəmdə Əli Nəcəfxanlıya deyirəm ki, sizin kitabınızla həm söhbətləşdim, həm də dərdləşdim. Necə dərdləşdim, necə söhbətləşdimsə bu kitabdakı yazılar əbədilik beynimə hopdu. Ona görə də fikirlərimi özüm yazdığım "Sözüm qalar" şeiri ilə bitirirəm:

Bu dünyada –
Bizdən sonra nəyimiz qalar?
Arzularımız yetim,
Ağlar neyimiz qalar...
Bu dünyada –
Gözümüz qalar,
Ocaq yerimiz,
Közümüz qalar.
Torpağın yaddaşında
İzimiz qalar.
Bəşərin ürəyində
Bir yaşarıq
Bir işıqlı
Bir yamyaşıl
Nəğməmiz, sözümüz qalar...

**Əli RAFİQ, şair-publisist**